# Gələcəyimiz milli ruhlu gənclərimizin əlindədir

**İnsanın ən ali hisslərindən olan vətənpərvərlik, hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil, həm də vətəni naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olub.**

Cəbrayıl rayon 22 saylı ümumi orta məktəbin ibtidai sinif müəllimi Kəmalə Məmmədova da məhz bu cəhətləri ilə fərqlənən pedaqoqlarımızdandır. Cəbrayıl rayonunda dünyaya göz açıb, uşaq yaşlarından erməni vəhşiliklərinin şahidi olan Kəmalə xanım vətənpərvər bir ziyalı kimi öz şagirdlərini də Vətənə sevgi ruhunda tərbiyələndirir. Dediyinə görə rayonları işğal olunanda 13 yaşında imiş.

Lakin erməni faşistlərinin qəddar əməllərini bu günə qədər yadından çıxara bilməyib. Xoşbəxt uşaqlıq çağlarını yaşayan qızcığaz 8-ci sinifdə oxuyarkən bütün dünyası dağılıb, başqa sakinlər kimi onlar da ev-eşiklərindən didərgin düşüblər. Müsahibim o günləri xatırlayarkən göz yaşlarını saxlaya bilmədi:" Həmin gün heç vaxt yadımdan çıxmaz. Atam Cəbi Rüstəmov evə girəndə çox həyəcanlı idi. Avqust ayının ən gözəl tətil günləri idi.

Atam Cəbi kişi dedi ki, artıq ermənilər Cəbrayıl rayonuna hücum edirlər. Mən isə tətil günlərinin daha yadda qalan keçməsini arzu etmişdim. Özüm üçün planlar cızırdım. Atam tətil günlərində məni müxtəlif məkanlara aparır və digər görməli yerlərə də gedəcəyimizi də planlaşdırırdıq. Mən hara desəm atam qəlbimi sındırmır, aparırdı. O xösbəxt günlərim birdən-birə dəhşətə çevrildi. Hamımız təşviş içində idik. Biz tələsik yığışıb hazırlaşdıq, atam İmişli rayonuna getməyə qərar verdi. Bir müddət orada yaşadıq. Sonra Saatlı rayonuna getdik. Çox çətinliklər yaşadıq. Mən orda orta təhsilimi başa vurdum. Ali məktəbi bitirəndən sonra da İlk iş fəaliyyətimə elə Saatlı rayonunda yerləşən Xocəvənd rayon köçkün məktəbində başladım. Sonralar ailə vəziyyətimlə əlaqədar Bakıya köçdük. Valideynlərim isə hazırda Biləsuvar rayonunda yerləşən "Cəbrayıl" şəhərciyində yaşayırlar.

3 övlad böyüdüb boya-başa çatdırmışam. Onları də bütün şagirdlərim kimi Vətənə sonsuz məhəbbət ruhunda tərbiyələndirmişəm. Bu il qızım Firuzə İqtisad Universitetinə daxiı olub. 21 ildir ki, bu ibtidai sinif müəllimi işləyirəm. Yetirmələrimin xoş sədasını eşitdikcə fərəhlənirəm. Hazırda 2-ci sinifə dərs deyirəm.

**-Gənc nəslin savadlı, bilikli, geniş dünyagörüşə malik olaraq yetişməsində intidai sinif müəllimlərinin rolunu necə qiymətləndirirsiniz?**

-Biliklərin təməli ibtidai siniflərdə qoyulur. Bu sözdə çox böyük həqiqət var. Binanın binövrəsi möhkəm olduğu kimi, şagirdin də biliklərinin binövrəsi möhkəm olmalıdı. Bu baxımdan bizim üzərimizə böyük məsuliyyət düşür.



**- 5 yaşlılarla işinizi hansı förmada qurursunuz? onlar hələ ki, çox balacadırlar və bu üzdən tez yorulurlar. Onlarla işləmək çətin deyilmi?**

- Çətin olmayan iş yoxdur. Onlara təbii ki, daha çox sevgi və şəfqətlə yanaşmaq lazımdır. Mən balaca şagirdlərimdə oxumağa həvəs yaradaraq əyləncəli oyunlar təşkil edirəm. Maraqlı hadisələr danışıram. Məktəbə gələrkən hansı hadisələrlə rastlaşdıqlarını, nə gördüklərini soruşuram. Bəzisi heyvanlarla qarşılaşdığını, digəri yaşli nənə-baba ilə salamlaşdığını deyir. Mən isə sual verirəm ki, bəs qarşınıza çıxan it -pişiyi yedirirsinizmi? Bununla onların qəlbində sahibsiz heyvanlara rəhm duyğuları oyatmağa çalışıram. Beləcə bu qısa sorğu-sualdan onların yorğunluqları çıxır və dərsimizə davam edirik. Çox gözəl effekt alınır. Uşaqlara vətənpərvər olmağı, köməksiz heyvanları, quşları, təbiəti sevməyi, yaşıllığa qayğı ilə yanaşmağı öyrədirəm.

**-Şagirdlərin vətənpərvər kimi formalaşmasında müxtəlif tədbirlərin təsiri böyükdür. Bu məsələyə münasibətiniz.**

-Həqiqətən belədir. Məktəbimizdə bütün respublika səviyyəli tədbirləri qeyd edirik. Sinif daxilində də tədbirlərimiz olur. Ana dili günü , Xocalı faciəsinin ildönümünə hazırlaşırıq.

Belə tədbirlərə və anım günlərinə bütün müəllimlər və şagird heyəti ciddi hazırlaşır. Bu toplantıların keçirilməsinin əsas təşəbbüskarı direktorumuz Mövlüş Qəhramanovdur. Mövlüş müəlim həmçinin valideyn-müəlim-şagird münasibətlərinin tənzimlənməsində böyük rol oynayır.

Bu barədə tövsiyələri ilə gənclərə dayaq olur. Hər birimizə qayğı və diqqətlə yanaşır. İşini mükəmməl bilən, təşkilatçılıq qabiliyyəti yüksək bir pedoqoq olaraq olduqca məsuliyyətli və tələbkardır. Problemlərin həllində bizə yaxından dəstək olur.

**- Tədris prosesində hansı problemlərlə qarşılaşırsınız?**

-Əsas çətinliyimiz dərsliklərlə bağlı olur. Bəzən ciddi səhvlərə rast gəlinir. Azərbaycan dilində çalışmalar azdır, qaydaların qısa olması məni bir müəllim olaraq qane etmir.

**Hüsniyyə Əlizadə**

Ədalət.- 2020.- 19 fevral. S. 4.